# "RUHUN DAŞQIN"INDA...

*Ömrü boyu xeyir naminə çalışmış Zərdüşt Böyük Tanrıdan ölməzlik istəyirdi. Tanrı ona bu ölməzliyi bəxş etdimi? Yəqin ki, Zərdüşt cismani ölümsüzlükdən çox mənəvi ölümsüzlüyü arzulayırdı. On iki min dana dərisinə yazdığı "Avesta"nın yaşarılığını istəyirdi.*

*Fatehlər bütün həqiqətləri qılınclarının qan süzülən ucunda axtarırlar. Bu həqiqətə (əgər buna həqiqət demək mümkünsə) güvənən Makedoniyalı İskəndər "Avesta"nın yanan cildlərinə baxıb Zərdüştə gülürdü... "Avesta" yanmadı. Hər dəfə şər tüğyan edəndə, əjdaha ağzını açıb alov püskürəndə bir "Hörmüz dalğası" gəlir, özünün mənəvi qüdrətilə bu şər alovunu boğub söndürür.*

*Azərbaycan ziyalısının cəmiyyətin bağrından qopan mənəvi harayına səs verməsi həmin "Hörmüz dalğası"nın XXI əsrdə təzahürüdür".*

Ə.R. Xələfli

*(Əvvəli ötən saylarımızda)*

Əli Rza Xələfli sözünün, təhlilinin bir məqamında bədii manevr edir, Avdı Qoşqar üçün janrın şərti olduğunu deyir. Bu, doğrudan da belədir. Söz-fikir dəndir, bitkidir, onu hansı əkin yerində - janrda əksən göyərəcək. Bu, əslində becərənin - yaradıcının bədii imkanlarını ortaya qoyur.

Mən ayrı-ayrı məqalələr şəklində olan bu əsəri monoqrafiya statusunda görürəm. Bunun başlıca amili əsərlərin ictimai yüklə, milli-bəşəri ideyalarla bağlılığı, insan amilinin ən ucalıqda olması istəyi və Ə.Xələflinin də bu fikir-düşüncə dənizinin içindən zəri, dürrü çıxarıb, onların dəyərini açması məndə bu fikri yaratdı. Avdı Qoşqarın sənət dünyasına, ədəbi aləminə həyata, insana gerçəklik prizmasından yanaşması, bədii detalların özəlliyi, Ə.Xələflinin geniş diapozona malik təfəkkür süzgəcindən keçərək, məntiqi, bədii kəşflərə söykənməsi mövzunun belə bir sanbalda ərsəyə gəlməsinə vəsilə oldu.

Əli Rza Xələfli maraqlı keçid edir şairin digər janrlara münasibətinə: "Avdı Qoşqarın qanı daman şeirlərinin analoqu da publisistikasıdır. Ağlamadan, zarımadan öz dərdini öz içində çəkəçəkə dünyanın gəldi-gedərinə yuxarıdan baxa bilən publisistikası." Söz sahibi bəzən fikrini doğmalaşdığı bir janrda deyir. Şahidiyik, bəzən bir neçə janrda qələm işlədən söz sahibi özünü hamısında eyni səviyyədə göstərə bilmir. Əli Rza Xələfli göstərir ki, Avdı Qoşqarda isə bu, istedadın bir çox rənglərə malik olduğundandır, vəhylərin gücündəndir, nədəndir, bilmirəm, o, bunları paralel və eyni səviyyədə apara bilir. Onun publisistikası hansı xüsusiyyətləri ilə oxucuda maraq doğurur? "Portret esseləri, sözə dəyər verən publisistik özünüifadə yığcamlığı, lakonikliyi ilə seçilir. Az sözlə kifayət qədər geniş fikir aləmini sözə gətirmək... bu, onun publisistik yaradıcılığının əsas xarakterik tərəfidir".

Əli Rza Xələflinın Avdı Qoşqara həsr etdiyi şeirləri də var, bu poetik nümunələri oxuduqca bir cazibə sardı məni, duydum ki, burda müəllifin şeirlərində görüb-eşitdiyim səsləri, rəngləri düşüncəmdə yoğurub həzm halına gətirməsəm, bu cazibədən qopa bilməyəcəyəm. Müəllifin nağıl dili ilə dediyi: Göy üzündə bir səs vardı, dolanırdı yeri, göyü. Səs içindən səs baxardı, yandırardı, yaxardı... Əslində, bunlar Avdı Qoşqarın ömür yazısının, ədəbi taleyinin güzgüdə əksidi. Deyir, bir uşaq dünyaya gəldi, amma yerdə yox, göydə! - Göylərdə doğulmaq da ki Tanrının böyük şərafətinə layiq olan, göylərə yaraşan, ruhunda gələn İlahi eşqlə işıq timsalında gözə görünənə nəsib olur. - Bəs bu səsin, rəngin sehri nədədir? Bunu elə özü də göy adamı, ruh adamı olan Əli Rza Xələfli görün necə nəql edir:



Burda sözün minbir çaları ilə düşüncədə sayrışan, qəlbi duyğulandıran rənglər sanki dünyaya doğulan Allah adamının taleyinə güzgü tutur. Kimdi, nə qüdrətin sahibidi bu yeni insan?! "Saf toxumdu, dəndi", bir atanın qanına qarışaraq ananın bətninə düşür. Bu dən adi dən deyil, özü də yerdə deyil, göy üzündə bitir, doğulur. Düşünülər ki, göydə doğulan adi insan olmaz, olsa-olsa, İsa olar, ya Məhəmməd. Müəllif bircə anda yaranan bu mifi elə anındaca dağıdır. Bizə görə də nə doğan, nə də doğulmayan, hər şeyi görən, eşidən, bilən Qüdrət, Fəzilət sahibi onu ondan ötrü göy üzündə göyərtdi ki, səsisözü ilə yer adamlarının milli şüurunu oyatsın. Doğulanın da kim olacağı, hansı taleni yaşayacağı tək olanın özünə aid idi. Elə bu səbəbdən də onu qorudu, nəyi məsləhət bildisə, onu da ruhuna bəxş etdi, heç nəyi ondan əsirgəmədi... Bunlar Əli Rzanın göy dilində yazdıqlarının yer dilində açmasından aldığım təəssüratdır... Professor Bədirxan Əhmədli onun ədəbi tənqidi yaradıcılığı haqqında çox doğru deyir: -

. Əli Rza Xələfli belə bir ədəbi-bədii kəşfi ilə sanki ruhumuza od vurdu, göylərdən enmədən, ordanca yerə belə bir səs göndərdi:

Burda bir həqiqət mənə gün kimi aydındı: Avdı Qoşqarın şeirləri göylərin paklığından doğulmasaydı, göylər şairi, nağılçısı Əli Rza Xələfli də o taleyin rənglərini sözünün fırçası ilə belə bir qüdrətdə çəkə bilməzdi! Başqa sözlə, göylər adamı olan bu iki söz sərrafının şeir-sənət dilinin ahəngi bir-birinə elə doğmadır ki! Əli Rza müəllimin Avdıya həsr etdiyi digər şeirləri də elə bu ahəngdə yanaşması ilə ruhumuzu titrətmək, bizi düşüncələrə qərq etmək gücündədir.

Mən çox az qism şairlərin ithaf şeirlərindən, barmaq sayına belə gəlməyən nümunələrdən, mətləbin rənglər işığından duyğulana bilərəm. Düşünürəm ki, kimə, nəyə ithaf olunmasından asılı olmayaraq, şeir milli-ictimai xarakteri, bəşərilik mahiyyəti ilə ictimai mühitin aynasında mənəvi ucalığı əks etdirməlidir.

Avdı Qoşqar da özünün poetik-publisistik yaradıcılığında ithaflara yer verib. Bu şeirlərdə məni razı salan ilk məqam budur ki, şairin ithaf şeirləri üzgörənlikdən, xətri xoş etməkdən, daha nələrdən uzaqdı. O, həqiqi mənada ədəbiyyat adamı olduğundan sözü ictimai dərdlərin qanına, ağrısına, acısına ürək verən ədalət xiridarlarının haqq səsinə köklənib. Bu ithaflardan biri mərhum dostu Sabir Adilə həsr olunub. O Sabir Adilə ki, vaxtilə "Cabbarlı adına Kinostudiyada ssenarist, H.Ərəblinski adına Sumqayıt Dövlət teatrında ədəbi hissə müdiri, Yazıçılar Birliyində məsləhətçi olmuş, həmçinin müxtəlif mətbuat orqanlarında çalışmışdır... Onun ssenarisi əsasında "Papaq" ("Evlənmək istəyirəm") bədii filmi çəkilmişdi". Bu, Əli Rza Xələflinin təqdimatıdır. S.Adil iki şeir kitabının ("Üz tutduğum adamlar", "Ağlayan divarlar") və "Yüz böyük türk" tərcümə kitabının müəllifidir. Avdı Qoşqar ona 5 şeir həsr edib. Ə.Xələfli bu şeirlərin hər birini müəllifin üslub və məntiqi əsasında, həm də özünün təfəkkürü işığında incələyib.

Avdı Qoşqar yazır:

Bu şeir də Avdının digər şeirləri kimi Əli Rzanı tutmuşdu, bu acı həqiqətə, onun ifadə, təsvir vasitələrindən heyrətlənmiş, şeirdəki dərdlə dərddaş olmuşdu. Burda "üzdən görünən budur ki, iki şəxsin yaşadığı dərdin, ağrının özü çözülür, əslində isə belə deyil. Buradakı iki şəxs insanlığın obrazıdır. Cəmiyyətin, həyatın insanlığa münasibəti poetik tədqiqata çəkilib." Bu təhlillərin hər birində poetik ruhun daşqınları var. Bu şeirlərdəki fikir məcmusu göy üzündən yağış kimi ruhuna yağıb. Bu yağış məni də yamanca islatdı, üşütdü, qəlbimi kövrəltdi...

Əli Rza Xələflinin təhlillərində (xüsusən də milli faciələrin, vətən nisgilinin gətirdiyi bəlaların, insanlığa qarşı fiziki-mənəvi terrorun baş alıb getdiyi hadisələrə münasibətində) bir yanğı var, ürək-qəlb yanğısı. Bunun bir ucu Avdı Qoşqarın yaradıcılığının təbiəti ilə bağlıdırsa, o biri ucu da Əli Rzaya vəhy kimi gələn qanadlı təsvirlər, dərindən dərketmələrdir. O, şairin şeirlərində unikal məqamları məharətlə tutub onları təhlil-tədqiqi süzgəcindən keçirir. Çəmən çiçəklərinin ətrindən, rəngindən xarakterinə uyğun olanları seçib obrazın içinə-çölünə uyğun olanını nəqşləyib. Zənnimcə, Əli Rza Xələflinin də, Avdı Qoşqarın da sözlərinin qanadı var. Odur ki, əsərlərində ifadə olunan fikir-düşüncə məhvərindən çıxan təki şüurlara üz tutur, göyün üzünə pərvazlanır. Pak olan Göy üzü də çirkinliyi, yalanı, saxtanı qəbul etmir. Mən bu iki sənətkarın əsərlərindən nümunələrə göz yetirdikcə onların yaradıcılığında nə qədər bənzərliyi (əsasən həqiqət axtarışları ilə!) müşahidə etdim. Bu səmimi dostluğun, ədəbi-əbədi qardaşlığın mayasında məhz fikir-ruh qohumluğu dayanır. Belə olmasaydı, Avdı Qoşqarın yaradıcılığı Əli Rza Xələflini maqnit kimi özünə çəkərdimi...

Mən hələ illər öncədən Avdı Qoşqarı sözünün arxasında dayanan görmüşəm, Sözü onu tanıdıb, oxucusuna sevdirib. O, heç vaxt ədəbi-bədii əsərlərindən qabağa keçməyib. Sözünə müştaq olanlar həmişə axtarıblar onu. Avdının bədii, poetik fikri hər vaxt söz xiridarlarının diqqətini çəkib. Onun sö-zündən, şeirindən Məmməd Araz da xəbərdar idi, oxuyur və münasibətini bildirirdi. Məmməd Araz yazırdı: "Avdı Qoşqarın şeirləri dağ selini, yaz gürşadını xatırladır. Ucalardan axır, genişliyə yağır. Sözü, misrası yüklüdü... zamanla, dünyayla üz-üzə qala bilir şair". Əli Rza Xələflinin deməsinə görə, Avdı Qoşqar yaradıcılığının özündə də bir orijinallıq, qeyri-standartlıq var. Bu, əslində onun özünə məxsus olan və oxucuya xoş gələn standartdı... Bu, qeyri-standartlığı Əli Rza Xələflinin də yaradıcılığında görmüşəm. Özünü ədəbiyyata, onun müxtəlif növ və janrında yazdığı əsərlərə həsr edən Söz sahibinin "Ruhun daşqını" da ədəbi xəzinənin bir özgə sanbalda, dəyərdə olan incisidir... Bu əsərdə Avdı Qoşqarın hansı şeiri təhlilə cəlb olunubsa, hamısına ciddi, əhatəli, obrazlı, özünəxas yanaşılıb. Əlbəttə, bunların hər birinin üzərində ayrıca dayanmaq da bir məqalədə qeyri mümkündür. Bu kitab geniş oxucu kütləsinə təqdim olunmaq üçün nəzərdə tutulduğundan fikirləşirəm, kaş bu dəyərli əsəri çoxları əldə edib oxuya və iki istedad sahibinin fikirlərindən bəhrələnə biləydi...

"Ruhun daşqını" iki şairin, ədəbiyyat adamının mənəvi daşqınları ilə məni heyrətdə qoydu. Bu heyrəti qədərincə bildirə, aça bildimmi... deyə bilmərəm. Amma bütün sözlərimin səmimiyyətdən, həqiqi sənətə, ədəbiyyata bağlılığımdan, ehtiramımdan qaynaqlandığı apaydındı... Bunu özünüz də hiss edəcəksiniz...

**Şəfəq NASİR,**
*filologiya üzrə fəlsəfə doktoru*